**UOT 314**

**KAZIM NAĞIYEV**

# MÜASİR MƏRHƏLƏDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA DEMOQRAFİK PROSESLƏRDƏ BAŞ VERƏN DƏYİŞİKLİKLƏR VƏ ONLARIN DİNAMİKASI

*Məqalədə Naxçıvan Muxtar Respublikasının demoqrafik vəziyyəti araşdırılır və əhalinin, o cümlədən şəhər və kənd əhalisinin sayında baş verən dəyişikliklər, əhalinin doğum, ölüm və təbii artım səviyyəsi, nikah və boşanmaların sayında baş verən dəyişikliklər təhlil edilir. Aparılan təhlillərdən aydın olur ki, Muxtar Respublikada əhalinin sayında müsbət dəyişiklikər baş vermişdir. Əhalinin sayında baş verən bu dəyişikliklər mövcud olan sosial-iqtisadi, milli-mədəni və digər amillərin nəticəsi kimi yaranan demoqrafik inkişaf göstəricilərinin artıb-azalması ilə əlaqədardır.*

**Açar sözlər:** *demoqrafik proseslər, təbii artım, nikah, boşanma.*

Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra burada yaxın və uzaq keçmişlə yanaşı müasir mərhələdə də ümumrespublika ilə birgə onun ayrı-ayrı əraziləri üzrə də demoqrafik proseslərin təhlil edilməsi və demoqrafik vəziyyətin öyrənilməsi məqsədəuyğun hal kimi zərurətə çevrilmişdir.

Müasir dövrdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın özünəməxsus demoqrafik inkişaf xüsusiyyətlərinə malik olan regionlarından biridir. Müstəqil Azərbaycan Respublikasında 27 yanvar 1999-cu ildə keçirilmiş əhalinin ilk milli siyahıyaalınması məlumatlarına əsasən burada yaşayan əhalinin sayı 354,1 min nəfər təşkil etmişdir. Onların 95,1 min nəfəri və ya 26,9%-i şəhər yerlərində, 259,0 min nəfəri və ya 73,1%-i isə kənd yerlərində məskunlaşmışdır. Həmin dövrdə muxtar respublika əhalisinin 174,5 min nəfərini və ya 49,3%-ni kişilər, 179,6 min nəfərini və ya 50,7%-ni isə qadınlar təşkil etmişdir.

1 yanvar 2020-ci il tarixə olan statistik məlumatlara əsasən Naxçıvan Muxtar Respublikasının əhalisi 459,6 min nəfər təşkil etmişdir. Onlardan 135,6 min nəfəri və ya 29,5%-i şəhər yerlərində, 324,0 min nəfəri və ya 70,5%-i kənd yerlərində yaşayır. Əhalinin 229,6 min nəfəri və ya 50,0%-i kişilərdən, 230,0 min nəfəri və ya 50,0%-i isə qadınlardan ibarətdir.

Demoqrafik proseslər insan və əmək potensialının formalaşması və ölkə iqtisadiyyatının iş qüvvəsi ilə təmin edilməsinin təbii əsasını və mənbəyini təşkil edir. Əhali və iqtisadiyyat vahid ictimai orqanizmin ünsürləri olduğundan forma və məzmunundan asılı olmayaraq, bütün ictimai-iqtisadi formasiyalarda ictimai istehsal prosesinin baş verməsi və onun ahəngdar surətdə davam etməsi üçün fiziki və zehni cəhətdən lazımı dərəcədə inkişaf etmiş müəyyən sayda əhalinin və əmək potensialının mövcud olması zəruri şərtdir. Canlı insan fərdlərinin mövcud olmasının təbii əsasını demoqrafik proseslər (əhalinin doğum, ölüm və təbii artım səviyyəsi) təşkil edir. Əhali insanlardan, demoqrafik hadisələr isə ayrı-ayrı fərdlərə aid olan faktlardan ibarət olduğundan, başqa kütləvi hadisələr kimi demoqrafik hadisələr də əhalinin sayından asılıdır [1, s. 77].

Əhalidə baş verən dəyişikliklər demoqrafik proseslərdə, demoqrafik proseslərdə baş verən dəyişikliklər isə əhalinin təbii istehsal göstəricilərində, bunlar isə öz növbəsində bütünlükdə əhalinin və onun mühüm tərkib hissəsi olan əmək ehtiyatlarının hərəkət dinamikasında baş verən dəyişikliklərdə öz əksini tapır [2, s. 58].

Naxçıvan Muxtar Respublikasında demoqrafik proseslərdə baş verən dəyişikliklərə təsir göstərən ən mühüm amillərdən biri əhalinin milli tərkibidir. XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan ərazisində əhalinin milli soy tərkibində baş vermiş dəyişikliklər müxtəlif obyektiv və subyektiv səbəblərlə bağlı olmuş və ayrı-ayrı tarixi inkişaf mərhələlərində bir-birindən fərqlənmişdilər. Qeyd etmək lazımdır ki, həmin dövrdə, daha dəqiq desək, 1897-1924-cü illərdə burada əhalinin, xüsusilə yerli azərbaycanlıların sayının azalmasına bir sıra amillər – 1905-1906-cı və 1915-1918-ci illərdə baş vermiş erməni-müsəlman qırğınları və bu qanlı hadisələr nəticəsində əhalinin kütləvi surətdə başqa yerlərə, xüsusilə İrana və Türkiyəyə köçməsi, dəhşətli aclıq nəticəsində əhalinin böyük itkilərə uğraması, Naxçıvan ərazisinin bir hissəsinin Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistana qatılması, Sovet hakimiyyətinin qurulduğu ilk illərdə əhalinin bir qisminin keçmiş SSRİ-nin və Azərbaycan SSR-in iri şəhərlərinə daimi yaşamağa, işləməyə və təhsil almağa köçüb getmələri, habelə əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin nisbətən aşağı düşməsi və digər amillər təsir göstərmişdir. Tarixən ən qədim zamanlardan burada məskunlaşmış və həmin ərazinin əsl sahibləri olan azərbaycanlıların sayı 1897-ci ilin əhali siyahıya alınması məlumatlarına əsasən 115,7 min nəfər olduğu halda, 1926-cı ildə 88,4 min nəfərə düşmüş, 1939-cu ildə 105,8 min nəfərə, 1959-cu ildə 127,5 min nəfərə, 1970-ci ildə 189,7 min nəfərə, 1979-cu ildə 230,0 min nəfərə, 1989-cu ildə 281,9 min nəfərə, 1999-cu ildə 350,8 min nəfərə, 2009-cu ildə isə 396,7 min nəfərə çatmışdır. Naxçıvan Muxtar Respublikasında əhalinin tərkibində azərbaycanlıların sayı daima artaraq 1897-ci ildəki 65,3%-dən, 1926-cı ildə 84,3%-ə, 1939-cu ildə 85,6%-ə, 1959-cu ildə 90,2%-ə, 1970-ci ildə 93,8%-ə, 1979-cu ildə 95,7%-ə, 1989-cu ildə 95,9%-ə, 1999-cu ildə 99,1%-ə, 2009-cu ildə isə 99,6%-ə qalxmışdır.

Cədvəldən göründüyü kimi 1990-2020-ci illəri əhatə edən 30 il ərzində Naxçıvan Muxtar Respublikasında əhalinin ümumi sayında müsbət dəyişikliklər baş vermişdir. 1990-2020-ci illərdə Naxçıvan Muxtar Respublikası əhalisinin ümumi sayında və cins tərkibində, şəhər və kənd əhalisinin sayında baş verən dəyişikliklərin dinamikasından aydın olur ki, həmin dövrdə muxtar respublikada əhalinin sayı 159,1 min nəfər və ya 52,9% artaraq, 300,5 min nəfərdən 459,6 min nəfərə, o cümlədən şəhər yerlərində 46,7 min nəfər və ya 52,5% artaraq, 88,9 min nəfərdən 135,6 min nəfərə, kənd yerlərində isə 112,4 min nəfər və ya 53,1% artaraq, 211,6 min nəfərdən 324,0 min nəfərə çatmışdır. Kişilərin sayı 82 min nəfər və ya 55,6% artaraq, 147,6 min nəfərdən 229,6 min nəfərə, qadınların sayı isə 77,1 min nəfər və ya 50,4% artaraq, 152,9 min nəfərdən 230,0 min nəfərə çatmışdır. Əhalinin sayında baş verən bu dəyişikliklər ilk öncə Naxçıvan Muxtar Respublikasında mövcud olan sosial-iqtisadi, milli-mədəni və digər amillərin nəticəsi kimi yaranan demoqrafik inkişaf göstəricilərinin, xüsusilə də əhalinin doğum, ölüm və təbii artım səviyyəsinin artıb-azalması ilə əlaqədardır. 1991-2019-cu illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin doğum səviyyəsi azalmağa doğru meyl etmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikasında əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 59,6% azalaraq, 1991-ci ildəki 29,2 nəfərdən 2019-cu ildə 11,8 nəfərə, təbii artım səviyyəsi isə 69,7% azalaraq, 24,1 nəfərdən 7,3 nəfərə düşmüşdür. 1991-ci ilə nisbətən 2000-ci ildə Muxtar Respublikada əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 44,9% azalaraq, 29,2 nəfərdən 16,1 nəfərə, təbii artım səviyyəsi 55,6% azalaraq, 24,1 nəfərdən 10,7 nəfərə düşmüş, 2000-ci ilə nisbətən 2009-cu ildə isə əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 21,7% artaraq, 16,1 nəfərdən 19,6 nəfərə, təbii artım səviyyəsi 33,6% artaraq, 10,7 nəfərdən 14,3 nəfərə qalxmışdır. 2009-cu ilə nisbətən 2019-cu ildə isə əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 39,8% azalaraq 19,6 nəfərdən 11,8 nəfərə, təbii artım səviyyəsi isə 48,9%

azalaraq, 14,3 nəfərdən 7,3 nəfərə düşmüşdür. Naxçıvan Muxtar Respublikasında əhalinin doğum səviyyəsinin azalmasına bir sıra demoqrafik, sosial-iqtisadi, milli-etnik xarakterli amillər təsir göstərmişdir. Bu amillərə əhalinin maddi və mədəni həyat səviyyəsinin dəyişilməsi və təhsil səviyyəsinin yüksəlməsi, ailədə uşaqların sayının şüurlu surətdə nizamlanması proseslərinin güclənməsi, nikahların və boşanmaların sayındakı dəyişikliklər və s. daxildir.

**Naxçıvan Muxtar Respublikası üzrə əhalinin sayı və cins üzrə bölgüsü**
**(ilin əvvəlinə min nəfər)**

| İllər | Əhalinin sayı (min nəfər) | o cümlədən | | Bütün əhaliyə görə, faizlə | | o cümlədən | | Bütün əhaliyə görə, faizlə | | Hər 1000 kişiyə düşən qadınların sayı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | şəhər | kənd | şəhər | kənd | kişilər | qadınlar | kişilər | qadınlar | |
| 1990 | 300,5 | 88,9 | 211,6 | 29,6 | 70,4 | 147,6 | 152,9 | 49,1 | 50,9 | 1036 |
| 1991 | 307,2 | 89,9 | 217,3 | 29,3 | 70,7 | 151,0 | 156,2 | 49,2 | 50,8 | 1034 |
| 1992 | 315,1 | 91,5 | 223,6 | 29,0 | 71,0 | 154,9 | 160,2 | 49,2 | 50,8 | 1034 |
| 1993 | 320,8 | 91,8 | 229,0 | 28,6 | 71,4 | 157,8 | 163,0 | 49,2 | 50,8 | 1033 |
| 1994 | 326,1 | 92,5 | 233,6 | 28,4 | 71,6 | 159,1 | 167,0 | 48,8 | 51,2 | 1050 |
| 1995 | 331,9 | 93,3 | 238,6 | 28,1 | 71,9 | 163,4 | 168,5 | 49,2 | 50,8 | 1031 |
| 1996 | 337,8 | 94,2 | 243,6 | 27,9 | 72,1 | 166,3 | 171,5 | 49,2 | 50,8 | 1031 |
| 1997 | 343,0 | 94,5 | 248,5 | 27,6 | 72,4 | 168,9 | 174,1 | 49,2 | 50,8 | 1031 |
| 1998 | 348,0 | 94,3 | 253,7 | 27,1 | 72,9 | 171,2 | 176,8 | 49,2 | 50,8 | 1033 |
| 1999 | 354,1 | 95,1 | 259,0 | 26,9 | 73,1 | 174,5 | 179,6 | 49,3 | 50,7 | 1029 |
| 2000 | 358,8 | 96,2 | 262,6 | 26,8 | 73,2 | 177,0 | 181,8 | 49,3 | 50,7 | 1027 |
| 2001 | 363,1 | 97,1 | 266,0 | 26,7 | 73,3 | 179,2 | 183,9 | 49,4 | 50,6 | 1026 |
| 2002 | 366,9 | 97,8 | 269,1 | 26,7 | 73,3 | 181,1 | 185,8 | 49,4 | 50,6 | 1026 |
| 2003 | 370,4 | 98,9 | 271,5 | 26,7 | 73,3 | 181,6 | 188,8 | 49,0 | 51,0 | 1040 |
| 2004 | 373,9 | 110,1 | 263,8 | 29,4 | 70,6 | 186,0 | 187,9 | 49,7 | 50,3 | 1010 |
| 2005 | 377,8 | 110,9 | 266,9 | 29,4 | 70,6 | 187,3 | 190,5 | 49,6 | 50,4 | 1017 |
| 2006 | 382,1 | 111,6 | 270,5 | 29,2 | 70,8 | 189,7 | 192,4 | 49,6 | 50,4 | 1014 |
| 2007 | 386,0 | 112,3 | 273,7 | 29,1 | 70,9 | 191,7 | 194,3 | 49,7 | 50,3 | 1014 |
| 2008 | 391,8 | 114,2 | 277,6 | 29,1 | 70,9 | 193,0 | 198,8 | 49,3 | 50,7 | 1030 |
| 2009 | 397,3 | 115,4 | 281,9 | 29,0 | 71,0 | 197,8 | 199,5 | 49,8 | 50,2 | 1009 |
| 2010 | 402,4 | 116,7 | 285,7 | 29,0 | 71,0 | 200,0 | 202,4 | 49,7 | 50,3 | 1012 |
| 2011 | 410,1 | 119,5 | 290,6 | 29,1 | 70,9 | 204,2 | 205,9 | 49,8 | 50,2 | 1008 |
| 2012 | 418,5 | 121,7 | 296,8 | 29,1 | 70,9 | 208,2 | 210,3 | 49,7 | 50,3 | 1010 |
| 2013 | 427,2 | 123,9 | 303,3 | 29,0 | 71,0 | 212,5 | 214,7 | 49,7 | 50,3 | 1010 |
| 2014 | 435,3 | 127,2 | 308,1 | 29,2 | 70,8 | 216,7 | 218,6 | 49,8 | 50,2 | 1009 |
| 2015 | 439,8 | 128,2 | 311,6 | 29,1 | 70,9 | 219,1 | 220,7 | 49,8 | 50,2 | 1007 |
| 2016 | 444,4 | 131,0 | 313,4 | 29,5 | 70,5 | 221,6 | 222,8 | 49,9 | 50,1 | 1005 |
| 2017 | 449,1 | 132,4 | 316,7 | 29,5 | 70,5 | 224,1 | 225,0 | 49,9 | 50,1 | 1004 |
| 2018 | 452,8 | 133,6 | 319,2 | 29,5 | 70,5 | 226,0 | 226,8 | 49,9 | 50,1 | 1004 |
| 2019 | 456,1 | 134,5 | 321,6 | 29,5 | 70,5 | 227,7 | 228,4 | 49,9 | 50,1 | 1003 |
| 2020 | 459,6 | 135,6 | 324,0 | 29,5 | 70,5 | 229,6 | 230,0 | 50,0 | 50,0 | 1002 |

1999-cu ilin məlumatları əhalinin siyahıyaalınması üzrə, qalan illərin məlumatları isə ilin əvvəlinə verilmişdir
**Qeyd:** *Cədvəl Naxçıvan MR Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Naxçıvan Muxtar Respublikası əhalisinin sayca dəyişməsinə təsir edən mühüm amillərdən biri də əhalinin ölüm səviyyəsi olmuşdur. 1991-2019-cu illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin hər 1000 nəfərinə görə ölüm səviyyəsi 11,8% azalaraq, 1991-ci ildəki 5,1 nəfərdən 2019-cu ildə 4,5 nəfərə düşmüşdür. Muxtar respublikada əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 1991-ci ilə nisbətən 2000-ci ildə isə 5,9% artaraq, 5,1 nəfərdən 5,4 nəfərə qalxmışdır. Əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 2000-ci ilə nisbətən 2009-cu ildə 1,9% azalaraq, 5,4 nəfərdən 5,3 nəfərə, 2009-cu ilə nisbətən 2019-cu ildə isə 15,1% azalaraq 5,3 nəfərdən 4,5 nəfərə düşmüşdür. Naxçıvan Muxtar Respublikasında əha-

linin ölüm səviyyəsinin azalmasına bir sıra sosial-iqtisadi amillərin, həmçinin Muxtar Respublikada səhiyyə sisteminin inkişafı, əhaliyə göstərilən səhiyyə xidmətinin yüksəldilməsi amilinin də təsiri olmuşdur.

Əhalinin doğum səviyyəsinə əhalinin nikah və boşanma səviyyəsi də təsir göstərir. 1991-2019-cu illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 52,1% azalaraq 12,1-dən 5,8-ə düşmüş, boşanmaların sayı isə 1,1 olmaqla dəyişməmişdir. 1991-2000-ci illərdə Muxtar Respublikada əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 1991-2019-cu illərdəki nikahların sayındakı dəyişikliklərlə eyni olmaqla 52,1% azalaraq, 12,1-dən 5,8-ə, boşanmaların sayı isə 54,5% azalaraq, 1,1-dən 0,5-ə düşmüşdür. 2000-2010-cu illərdə isə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 44,8% artaraq, 5,8-dən 8,4-ə, boşanmaların sayı isə 60% artaraq, 0,5-dən 0,8-ə qalxmış, 2010-2019-cu illərdə isə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 30,9% azalaraq, 8,4-dən 5,8-ə düşmüş, boşanmaların sayı isə 37,5% artaraq, 0,8-dən 1,1-ə qalxmışdır. Naxçıvan Muxtar Respublikasında nikah və boşanmaların səviyyəsinə əhalinin cins və yaş tərkibində baş verən dəyişikliklər, şəhər və kənd əhalisinin sayının dəyişilməsi və digər demoqrafik, mədəni-təhsil, sosial-iqtisadi və s. amillər təsir göstərmişdir.

Bazar iqtisadiyyatına keçid şəraitində ölkənin bütün regionlarında əmək resurslarının tənzimlənməsi üçün əhalinin təkrar istehsalının demoqrafik əsasını öyrənmək vacib məsələlərdən biridir. Demoqrafik prosesləri bilmədən əhalinin inkişaf dinamikasını müəyyənləşdirmək mümkün deyildir [1, s. 214].

Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının demoqrafik inkişaf potensialına dair proqnozlar göstərir ki, bütövlükdə doğma vətənimiz olan Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası əhalisinin gələcək inkişafı üçün ölkəmizin böyük imkanları vardır. Bu imkanlardan səmərəli istifadə edilməsi ölkəmizin dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilməsinə səbəb olacaqdır.

## ƏDƏBİYYAT

1. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
2. Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 660 s.
3. Muradov R.Ş. Müasir mərhələdə əhalinin məşğulluq quruluşunun formalaşması və təkmilləşdirilməsi problemləri. Bakı: Elm, 2006, 216 s.
4. www.statistika.nmr.az

***AMEA Naxçıvan Bölməsi***
***Email: kazımnagiyev0000@gmail.com***

**Kazim Nagiyev**

## CHANGES IN DEMOGRAPHIC PROCESSES IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AT THE MODERN STAGE AND THEIR DYNAMICS

The article examines the demographic situation in the Nakhchivan Autonomous Republic and analyzes changes in the population, including urban and rural populations, births, deaths and natural increase, marriages and divorces. It is clear from the analysis that positive changes have taken place in the population of the autonomous republic. These changes in the population are due to the increase and decrease of demographic development indicators as a result of existing socio-economic, national-cultural and other factors.

**Keywords:** *demographic processes, natural growth, marriage, divorce.*

**Казим Нагиев**

## ИЗМЕНЕНИЯ В ДЕМОГРАФИЧЕСКИХ ПРОЦЕССАХ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ НА СОВРЕМЕННОМ ЭТАПЕ И ИХ ДИНАМИКА

В статье анализируется демографическая ситуация в Нахчыванской Автономной Республике и анализируются изменения в населении, включая городское и сельское население, рождаемость, смертность и естественный прирост, браки и разводы. Из анализа видно, что в населении автономной республики произошли положительные изменения. Эти изменения в населении обусловлены увеличением и уменьшением показателей демографического развития в результате существующих социально-экономических, национально-культурных и других факторов.

**Ключевые слова:** *демографические процессы, естественный рост, брак, развод.*

*(İqtisad elmləri doktoru, professor Əli Nuriyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.05.2020**
**Son variant 06.07.2020**